*AMEA*
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2019, № 2*
*Səhifə: 235-238* *ISSN: 2663-4406*

**UOT:** 821.512.162(091)

Sevinc Yusifova*

# QARABAĞ HADİSƏLƏRİNİN FƏRMAN KƏRİMZADƏ YARADICILIĞINA TƏSİRİ

***Xülasə***

Məqalədə Fərman Kərimzadənin Qarabağ hadisələrinə həsr etdiyi əsərlərindən bəhs olunur. Qarabağ hadisələri F.Kərimzadənin müəllifi olduğu "Çaldıran döyüşü" və "Xudafərin körpüsü" əsərlərində silinməz iz buraxmışdır. F.Kərimzadənin öz əsərlərində istifadə etdiyi motivlər, romanlarda əks olunan tarix, bəzi qədim hadisələrin kütləviliyinin səbəbləri də burada açıqlanır. XXI əsrin müasir hadisələri Azərbaycan tarixi üçün marağa səbəb oldu və Səfəvilərin farslara qarşı döyüşləri burada araşdırılır.

**Açar sözlər:** tarix, əsər, ictimai fikir, ədəbi proses

## IMPACT OF GARABAGH EVENTS ON FARMAN KARIMZADEH'S ACTIVITY

***Summary***

This article is devoted to the Karabakh events in the works by Farman Karimzade. Karabakh events have left an indelible mark on the works by F.Karimzade and the author of "Chaldiran Battle" and "Khudaferin Bridge" – F. Kerimzadeh, his creativity, motives used by him in his works, history reflected in the novels, reasons of publicity of some ancient events are exposed here as well. Contemporary events of the XXI century caused the interest to the definite period of Azerbaijan history, and the battle of Sefevids with Pershia are investigated here.

**Key words:** history, work, public opinion, literary process

## ВЛИЯНИЕ КАРАБАХСКИХ СОБЫТИЙ НА ТВОРЧЕСТВО ФАРМАНА КЕРИМЗАДЕ

***Резюме***

Представленная статья посвящена карабахским событиям в произведениях Фармана Керимзаде. Карабахские события оставили неизгладимый след в творчестве Ф.Керимзаде. Автор статьи исследует мотивы и причины некоторых древних событий, описанных писателем в произведениях «Чалдыранское сражение» и «Мост Худаферин». События, в которых Сефевиды ведут войну против Персии, представляют интерес и в современном 21 веке.

**Ключевые слова:** история, произведение, общественная мысль, литературный процесс

**Giriş.** Fərman Kərimzadənin (1937-1989) yaradıcılığı parlaqlığı və qeyri-adiliyi ilə seçilir. Yazıçı, ssenarist və rejissor şəxsiyyətinin mahiyyəti özlüyündə bir vəhdəti təmsil edir:

"Fərman Kərimzadə xeyirxah, səmimi insan, heyrətamiz istedadlı peşəkar yazıçı, coşqun, həyat enerjisi ilə dolub-daşan vətənpərvər vətəndaş kimi milli dövlətimizin müstəqilliyi uğrunda mübarizənin alovlandığı və 1988-ci il hadisələrinin tarixi köklərinə marağın artdığı bir dövrdə laqeyd qala bilməzdi və üzərinə vətənin müdafiəçisi missiyasını götürərək həm Bakıda, həm də Moskvada

* Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. E-mail: seva83@live.com

siyasətçilərlə görüşdü. Göründüyü kimi, bu illər Fərman Kərimzadənin qəlbində dərin izlər buraxdı və bir neçə aydan sonra 52 yaşında vəfat etməsinə səbəb oldu. Yazıçının yazılmamış əsərləri, gerçəkləşdirilməmiş xeyli layihələri qalmışdır” [1, s.1-3].

Əzim Əzimzadə adına Dövlət Rəssamlıq Məktəbində və Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunda təhsili, məktəbdə müəllimlik etməsi, tərcüməçi, “Abşeron” qəzetində və "Ədəbiyyat və mədəniyyət" jurnalında şöbə müdiri, "Azərbaycanfilm" kinostudiyası kollektivinin və Azərbaycan Yazıçılar Birliyinin üzvü olması onun çoxyönlü bir sənətkar olduğunu və yalnız bir fəaliyyət sahəsi ilə məhdudlaşmadığını təsdiq edir. Hər zaman irəliləyişə, yeni nailiyyətlərə, insanlara fayda verməyə can atması Fərman Kərimzadənin həyatının mənasını təşkil etmişdir. Bununla yanaşı, 1988-89-cu illərdə baş verən hadisələr Fərman Kərimzadəni tarixi romanın janrına müraciətə sövq etmişdir. Kinematoqrafiya sahəsində F.Kərimzadə “Oxuyur Şövkət Ələkbərova”(1970), “Axırıncı aşırım” (1971), “Daş dözür” (1973), “Dərviş Parisi partladır” (1976), “Şah və xidmətçi” (1976) və digər filmlərdə rejissor və redaktor kimi işləmişdir. “Axırıncı aşırım” (1971), “Tütək səsi” (1973), “Dörd bazar günü” (1974), “Arvadım mənim, uşaqlarım mənim” (1978) filmlərinin müəllifidir.

Yazıçı F.Kərimzadənin yaradıcılıq karyerası keçən əsrin məşhur 60-cı illərinə təsadüf etmişdir və o epoxanın başqa nümayəndələri kimi cəsarətli axtarışlar və yeniliklərlə dolu idi. 1958-ci ildə qələmə aldığı "41 ölçülü ayaqqabı" hekayəsi ilk təcrübə olsa da, müharibənin fəlakət dolu nəticələrini təsirli bir dil ilə oxucuya çatdırırdı. "Sonuncu eksponat", "Toy toğlusu" əsərləri Böyük Vətən müharibəsi mövzusuna həsr olunmuşdur və müharibənin ağrı-acılarından bəhs edir. "Sonuncu eksponat" povesti oğlunu müharibədə itirmiş ananın təsirli hekayətindən bəhs edir. Oğluna öz əlləri ilə tikdiyi köynəyin də sərgiləndiyi muzeyə gedən ana güvənin yeyib dəlik-deşik etdiyi həmin köynəyi görəndə acısı daha da artır. F.Kərimzadə hadisələrin məntiqini tutmağı, obrazların mənəvi-psixoloji aləmini aydın cizgilərlə əks etdirməyi bacaran sənətkardır [2, s.20-26].

Hər hansı bir yazarın yaradıcılığı mövzuların miqyası, bədii səviyyəsi, ədəbi prosesdəki rolu və yerinə görə fərqlənən mərhələlərə ayrılır. Fərman Kərimzadə yaradıcılığının bu mərhələlərindən birini 1980-ci illərdə – yazıçının həyatının ən məhsuldar dövründə yaradılmış tarixi romanları təşkil edir.

Özünə qarşı tələbkarlıq, məqsədə doğru inadla irəliləmək və heyranedici çalışqanlıq Fərman Kərimzadənin təkcə xarakterinin deyil, həm də tarixə azalmayan marağının təcəssümü idi. Göründüyü kimi, F.Kərimzadənin maraqlı hekayə və povestləri vardır. Lakin Fərman Kərimzadə imzası daha çox tarixi roman müəllifi kimi məşhurdur. Tarixi romanlarda onun xüsusi üslubu mövcuddur. 1967-ci ildə çap olunmuş "Qarlı aşırım" onun yazıçı istedadını, ümidverici bir nasir kimi yetişdiyini üzə çıxardı. F.Kərimzadə "Qarlı aşırım"da 30-cu illərin ziddiyyətlərini, kollektivləşmə dövrünün çətinliklərini, özündən əvvəlki nəsr ustalarını təkrar etmədən tamamilə yeni ruhda əks etdirdi. 30-cu illərə 60-cı illərin və altmışıncıların gözü ilə baxış, hadisələrin dolğun-dürüst mənalandırılması bu əsəri oxuculara sevdirdi [3, s.5-15].

Hər bir əsər üzərində işləyərkən, onlarla kitab, tarixi sənədləri və arxiv materiallarını araşdırıb öyrənirdi. "Çaldıran döyüşü" romanı da, “Xudafərin körpüsü” kimi təsvir olunan dövrün mürəkkəbliyi, süjet xəttinin dolğunluğu, personajların sayı baxımından postsovet dövrü Azərbaycan ədəbiyyatının ən yaxşı tarixi romanlarındandır. Yazıçı əvvəllər sovet ideologiyasının tələblərinə uyğun olaraq saymazyana şəkildə təhrif olunan faktları təhlil etmiş, daha öncə məlum olmayan hadisələrin üstünü açmış, tarixi həqiqətləri, o cümlədən Qarabağın əsl tarixini bərpa etmişdir. 1514-cü ildə Səfəvilərlə Osmanlı İmperatorluğu arasındakı Çaldıran döyüşü, tarixi romanların əsası kimi böyük rol oynamışdır. Hər bir xalqın xarakteri ağır sınaq günlərində – yaxınlaşmaqda olan, xalqı yer üzündən silməyə, əsarət altına almağa və onun azadlıq arzularını boğmağa hazır olan tarixi hadisələrin qara buludları başının üstünü alanda daha yaxşı məlum olur. Belə zamanlarda, dəhşətli təhlükə xalqın gizli potensialını oyadır, onun həyat və mövcudluğuna təhdid yarada biləcək qüvvələri məhv edir. Belə mühüm məqamlarda xalq sahib olduğu iradə və möhkəmliklə tarixi taleyini özü həll edir.

1514-cü ilin qanlı hadisələri zamanı, Osmanlı qoşunları qorxunc bir axınla Azərbaycan üzərinə hücuma keçərkən də belə olmuşdu.

Sosial-ideoloji mütəşəkkillik, siyasi-coğrafi bütövlük, milli dövlətçiliyin yaradılması uğrunda mübarizə – F.Kərimzadənin ədəbi-bədii forma daxilində işlədiyi, tədqiq etdiyi əsas mövzulardandır. Müəllif öz qarşısına yeni, daha mürəkkəb tarixi mərhələdə milli identiklik və xüsusilə şəxsiyyət duyğusu problemini qoyur və onu həll edir. Professor N.Cəfərov yazır: "F.Kərimzadəyə qədər ədəbiyyat tarixində sosializm quruculuğunun Azərbaycan kəndindəki kolxoz oyunları belə bir miqyasda və keyfiyyətdə təqdim edilməmişdir. Və uzun müddət təqdim olunmayacaq". Yazıçı karyerası boyunca qəlbinin səsini dinləmiş, vətəndaşlıq mövqeyini ciddi şəkildə ifadə etmiş, öz ölkəsinin tarixinə sevgi və həssaslıqla yanaşmışdır [4, s.7].

Müəllifin incəliklə işlədiyi mürəkkəb və çoxplanlı süjetlər ölkə tarixinin dərin qatlarına nüfuz etməyə və tarixi şəxsiyyətlərin realist obrazını yaratmağa imkan verirdi. Fərman Kərimzadə əmin idi ki, keçmişi bilmək yalnız dünyanı dərk etmək üçün deyil, ondan nəticə çıxarmaq, gələcəyi proqnozlaşdırmaq və hadisələrin inkişafını qabaqcadan görə bilmək, duymaq üçün lazımdır.

Tarixi əsərlərində hərtərəfli məlumatlar yalnız nəzərdən keçirilmiş dövrün sosial-siyasi fikirlərinin bəzi və ya digər aspektlərini yüngülləşdirməklə yanaşı, bu barədə müəyyən edilmiş fikirlərin əhəmiyyətli bir dəyişməsinə də imkan verir. Keçmiş nə qədər maraqlı olsa da, şübhəsiz ki, gələcək F.Kərimzadə üçün daha maraqlı idi. F.Kərimzadə, bir ictimai xadim kimi hiss edirdi ki, Vətənin başı üzərini qara buludlar alıb. Onun ölkəsi müxtəlif tələblər altında əsrlər boyu hücuma məruz qalırdı, xalqın və ölkənin bütövlüyünü yenidən təhlükə gözləyirdi.

Yazıçı tərəfindən müfəssəl şəkildə təsvir edilən xalqları birləşdirən tarixi körpülər (Xudafərin körpüsü), onları ayıran konfliktlər (Çaldıran döyüşü) xalqa bir daha ayıq-sayıq olmağı, xalqın başının üstünü ala biləcək təhlükələrin aradan qaldırılmasının vacibliyini xatırladır. Şah İsmayıl Xətai şəklində, o, dünənin liderini deyil, həm də gələcək lideri təsvir edir, bu sözləri professor Nizami Cəfərov "Xudafərin körpüsü" romanına yazdığı məqalədə ifadə edir [1, s.8-10].

1948-50-ci illərdə Ermənistandan "könüllü" olaraq deportasiya edilən F.Kərimzadə, "erməni xəritəsini" imperialist qüvvələr tərəfindən türklər əleyhinə necə istifadə edildiyini yaxşı bilirdi. Fərman Kərimzadə həyatının son illərində yazdığı "Vedi dağları" kitabında nisbətən yaxın keçmişi təsvir etmişdir [2, s.30].

Azərbaycanın əhalisinin işğal edilmiş ərazilərdə məruz qaldığı etnik təmizləmə siyasəti nəticəsində bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün durumuna düşdüyü, Dağlıq Qarabağın və ona bitişik yeddi rayonun işğalı – bütün bunlar Fərman Kərimzadəni bir vətəndaş kimi narahat etmiş və təbii olaraq onun bədii yaradıcılığında əksini tapmışdır. F.Kərimzadənin yaradıcılığı, xüsusilə də tarixi romanları Azərbaycan ictimai-ədəbi fikrinin ən məzmunlu, ən vətənpərvər səhifələrindən biridir [3, s.9-18].

Fərman Kərimzadənin üslubu və düşüncə tərzi onun əsərlərinə yeni nəzərlərlə baxmağa və onu xarakterizə etməyə imkan verirdi. Əxlaqi-estetik dəyərlərin klassik irsin ən yaxşı ənənələrindən müasir zamanın prinsip etibarilə mürəkkəbləşdirilmiş və təzadlı kontekstinə doğru istiqamətdə yenidən mənalandırılması xeyli sayda bədii təfəkkür istiqamətlərinin yaranmasına səbəb olmuşdur. Keçid mərhələsinin xarakteri və dövrün dünyagörüşünün mənzərəsini müəyyənləşdirən konfliktlər müəllifin fikir və ideyalarını daha dəqiq, dolğun və ətraflı şəkildə açmağa kömək etmişdir. Fərman Kərimzadənin əsərlərində milli təfəkkür konsepsiyası və azərbaycançılıq ideologiyası açıqlanır, sərkərdə və döyüşçülərin böyük xidmətlərindən bəhs edilir. Müəllif milli-ideoloji məsələlərin özünəməxsus təhlilini verir.

**Nəticə.** Fərman Kərimzadənin bədii strategiyası müharibə dalğasında formalaşmışdır və onun Qarabağ müharibəsi ətrafında cərəyan edən hadisələrin sarsıtdığı həyatı olduğu kimi, bəzək-düzəksiz əks etdirməyə çalışırdı. Təbii ki, yazıçının yaradıcılığında tənqidi realizmin təsiri hiss olunurdu, lakin o, bu cərəyanların ehkamlarının sərhədlərini aşıb keçməyi bacarırdı. O, Azərbaycan ədəbiyyatında məhz yazarın özünəməxsus üslubun – bədii publisistikanın, tarixi belletristikanın nümayəndə-

sidir. Təsadüfi deyildir ki, yazıçı tarix və müharibə mövzularındakı əsərlərini ömrünün yetkin çağlarında yazmağa başlamışdır. Ölkə tarixi, müharibəsiz dünya ideyası – onun əsərlərinin əsas leytmotividir. Mütərəqqi düşüncəli qələm ustadı, bütün yaradıcılıq ömrünü tarixi həqiqətlərin axtarışına həsr etmiş yazıçı kimi o, müasiri olduğu gerçəklikləri hadisələrdə keçmişin əks-sədasını görürdü. Fərman Kərimzadə həyatının başlıca qayəsini övladlarına və nəvələrinə keçib gəldiyi ömür yolunda qazandığı mənəvi dəyərləri miras qoymaqda görürdü. Bu, ən müxtəlif həyatı çətinliklərə sinə gərməkdə, ən mühüm amillərə ikincidərəcəliləri, xüsusi ilə ümumini ayıra bilməkdə, təhlil etməkdə və düzgün nəticələr çıxarmaqda varislərinə yardımçı olacaqdı.

**ƏDƏBİYYAT**

1. Kərimzadə K. Xudafərin körpüsü. Bakı, “Çaşıoğlu”, 2007.
2. Kərimzadə K. Çaldıran döyüşü, 2006.
3. Kərimzadə K. Qarlı aşırım, 2007.